**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

İş № 2(103)- /2019
2019-cu il Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyası

Hakimlər Hüseynov Abiddin Qabil oğlunun sədrliyi və məruzəsi ilə,
İmanov Azad Nizam oğlundan və Sadıqov Vahid Nəriman oğlundan ibarət tərkibdə,
Səfərli Xədicə Əlicabbar qızının katibliyi,
iddiaçı XXXX və nümayəndəsi, vəkil XXXX,
mütəxəssis XXXX iştirakı ilə,

iddiaçı XXXX qızının cavabdeh XXXX oğluna qarşı əmlak bölgüsü tələbinə dair 2(009)- /2018 saylı iş üzrə Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin 28 avqust 2018-ci il tarixli qətnaməsindən iddiaçı tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq

**MÜƏYYƏN ETDİ:**

Hazırkı işin mübahisəsiz halları ondan ibarətdir ki, XXXX oğlu (bundan sonra - cavabdeh) ilə XXXX qızı (bundan sonra – iddiaçı) arasında 10.08.2013-cü il tarixdə nikah bağlanılmış, nikahdan sonra arvada XXXX soyadı verilmişdir. Tərəflərin birgə nikahdan 20.09.2014-cü il təvəllüdlü XXXX və 07.06.2017-ci il təvəllüdlü XXXX adlı uşaqları anadan olmuşdur.

Cavabdehin adına 12.03.2016-cı il tarixdə «XXXX» markalı, XXXXdövlət nömrə nişanlı; 11.08.2017-ci il tarixdə «XXXX» markalı, XXXX dövlət nömrə nişanlı avtomobil (bundan sonra – mübahisəli avtomobil) qeydiyyata alınmışdır.

Mübahisəli avtomobil 13.01.2018-ci il tarixdə cavabdehin atası XXXX oğlunun, 23.02.2018-ci il tarixdə alqı-satqı müqaviləsinə əsasən XXXX oğlunun adına qeydiyyata alınmışdır.

Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin 28.02.2018-ci il tarixli, 2(009)- /2018 saylı qətnaməsi ilə XXXX oğlundan 20.09.2014-cü il təvəllüdlü XXXX adlı və 07.06.2017-ci il təvəllüdlü XXXX adlı uşaqların yetkinlik yaşına çatanadək saxlanılması üçün hər uşağa görə ayda 154 manat sabit pul məbləğində alimentin XXXX qızının xeyrinə tutulması qət edilmişdir.

Baxılan iş üzrə iddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehin istifadəsində olan «XXXX» markalı, XXXX dövlət qeydiyyat nişanlı avtomobilin 1/2 hissəsinə iddiaçının mülkiyyət hüququnun tanınması, «XXXX» markalı, XXXX dövlət nömrə nişanlı avtomobilin satışından əldə edilmiş vəsaitin yarısının cavabdehdən alınaraq iddiaçıya verilməsi bardə qətnamə çıxarılmasını xahiş etmişdir.

İddia onunla əsaslandırılmışdır ki, cavabdehlə birgə yaşadıqları dövrdə 2 ədəd avtomobil əldə ediblər. Ona məlum olub ki, 2018-ci ildə faktiki ayrıldıqdan sonra cavabdeh mübahisəli avtomaşını onun razılığı olmadan özgəninkiləşdirib.

Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin 28 avqust 2018-ci il tarixli qətnaməsi ilə iddia qismən təmin edilmiş; cavabdehin adına qeydiyyata alınmış «XXXXXXX» markalı, XXXX dövlət nömrə nişanlı avtomaşının birgə nikah dövründə əldə olunan daşınar əmlak kimi

tərəflər arasında bərabər paylarla bölünməsi və həmin əmlak üzərində tərəflərin ½ paylar üzrə mülkiyyət hüquqlarının tanınması qət edilmiş; iddia qalan hissədə təmin edilməmişdir.

Cavabdeh apellyasiya şikayəti verərək qətnamənin qismən ləğv edilməsini və iddianın tam təmin edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

Apellyasiya şikayəti iddia ərizəsinin dlillərinə uyğun əsaslandırılmışdır.

Apellyasiya baxışı zamanı iddiaçı bildirdi ki, mübahisəli avtomobil saz vəziyyətdə olub, dəri salona və müvafiq avtomobillər üçün xarakterik olan bütün göstəricilərə malik olub.

İddiaçının vəkili şikayəti müdafiə edərək təmin olunmasını xahiş etdi.

Cavabdehin vəkili əvvəlki məhkəmə iclasında apellyasiya şikayətinə etiraz edərək təmin olunmamasını xahiş etmişdir.

Məhkəmə kollegiyası tərəflərin izahatlarını dinləyib, mülki işin materiallarını və apellyasiya şikayətinin dəlillərini araşdırıb hesab edir ki, apellyasiya şikayəti təmin edilməlidir.

İlk növbədə nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 372.6-cı maddəsinə görə apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığını onun düzünə və ya dolayısı ilə mübahisələndirilən hissəsində, şikayət qərarın ləğv edilməsinə yönəldikdə və ya apellyasiya şikayətində və ona etirazlarda ifadə olunmuş dəlillərə əsasən mübahisənin predmeti bölünməz olduqda isə tam yoxlayır. Baxılan iş üzrə apellyasiya baxışının hədlərini qətnamənin iddia tələbinin təmin olunmayan hissəsinin qanuniliyinin və əsaslılığının yoxlanılması təşkil edir. Çünki iş üzrə çıxarılmış qətnaməni cavabdeh mübahisələndirməmiş, iddiaçı isə qətnamənin qeyd olunan hissədə ləğv olunmasını xahiş etmişdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir (maddə 225.1). Nikaha girənədək ər-arvaddan hər birinə mənsub olmuş əmlak, habelə onlardan birinin nikah dövründə hədiyyə kimi və ya vərəsəlik qaydasında aldığı əmlak onun mülkiyyətidir (maddə 225.2.). Rəsmi reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyalara daşınmaz əşyaların alğı-satqısı haqqında göstərişlər müvafiq surətdə tətbiq edilir (maddə 650).

Azərbaycan Respublikasının Ailə Məcəlləsi, həmçinin nəzərdə tutur ki, ər-arvadın ümumi əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququ onların qarşılıqlı razılığı əsasında həyata keçirilir (33.1). Ər-arvaddan birinin daşınmaz əmlak üzərində sərəncam vermək barədə notariat qaydasında təsdiq edilən və (və ya) qeydiyyata alınan əqdlər bağlanması üçün digər tərəfin notariat qaydasında təsdiq edilmiş razılığı lazımdır. Ərin (arvadın) bu barədə notariat qaydasında təsdiq olunmuş razılığı olmadıqda, bu əqd Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən olunmuş müddətdə mübahisələndirilə bilər (33.4). Ər-arvadın ümumi əmlakının bölünməsi nikah dövründə, eləcə də onlardan birinin tələbi ilə nikah pozulduqdan sonra həyata keçirilir (maddə 36.1).

Birinci instansiya məhkəməsi mübahisəli avtomobilə dair hissədə iddianı təmin etməməklə bağlı mövqeyini onunla əsaslandırmışdır ki, həmin avtomobil tərəflərin birgə vəsaiti hesabına deyil, cavabdehin atasının vəsaiti hesabına əldə edilmişdir. Cavabdehin aylıq əmək haqqı 200 manat təşkil etdiyi üçün orta bazar dəyəri 24000 ABŞ dolları olan avtomobili satın alması mümkünsüzdür.

Məhkəmə kollegiyası hesab edir ki, birinci instansiya məhkəməsi tərəfindən maddi hüquq normaları düzgün tətbiq edilmədiyindən və qətnamədə göstərilmiş nəticələr işin hallarına uyğun gəlmədiyindən qətnamə mübahisələndirilən hissədə ləğv olunmalı və həmin hissədə iş üzrə yeni qətnamə çıxarılmalıdır.

Mübahisəli avtomobilin tərəflərin birgə nikahda olduqları dövrdə əldə edildiyi və tərəflər arasında ailə münasibətləri faktiki pozulduqdan sonra cavabdehin atasının adına özgəninlikəşdirildiyi işin mübahisə edilməyən hallarıdır.

Cavabdeh iddiaya etirazını onunla əsaslandırır ki, mübahisəli avtomobil ər-arvadın birgə vəsaiti hesabına deyil, atasının vəsaiti hesabına əldə olunub və onun adına formal qeydiyyata alınıb.

Mübahisəli avtomobilin birgə nikah dövründə əldə edildiyi mübahisəsiz olduğu üçün həmin avtomobilin ər-arvadın birgə vəsaiti hesabına deyil, cavabdehin atasının vəsaiti hesabına əldə edildiyini sübutetmə yükü cavabdehin üzərinə düşür.

Cavabdeh bununla bağlı yalnız iki şahid təqdim etmişdir. Həmin şahidlərdən biri cavabdehin atası XXXXdur. Nəzərə alınmalıdır ki, avtomobil cavabdeh tərəfindən məhz həmin şəxsin adına özgəninkiləşdirildiyindən və onun tərəfindən satıldığından XXXX hazırkı işin nəticəsində maraqlıdır və onun verdiyi ifadə iş üzrə mötəbər sübut kimi qəbul edilə bilməz.

Digər şahid, cavabdehin əmisi olan XXXXdur. Həmin şəxs ifadəsində avtomobilin dəyərinin XXXX tərəfindən ödənildiyi, lakin cavabdehin adına rəsmiləşdirdiyi barədə ümumi məzmunlu ifadə vermişdir.

Nəzərə alınmalıdır ki, avtomobil rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşya olduğundan onun əldə olunması qanunla müəyyən edilmiş xüsusi qaydada (hazırkı vəziyyətdə müvafiq orqanda təsdiq olunmuş yazılı müqavilə əsasında) həyata keçirilməli və əldə edən hüququ daşınar əşyaların rəsmi reystrində qeydə alınmalıdır.

Cavabdeh XXXXun ifadəsini təsdiq edən digər sübutlar təqdim etməmiş, həmçinin avtomobilin XXXXun adına rəsmiləşdirməyə mane olan hallarla bağlı hər hansı ağlabatan dəlilə istinad etməmişdir. Halbuki həqiqətən də mübahisəli avtomobilin dəyəri XXXX tərəfindən ödənilmiş olsaydı, onun avtomobili öz adına rəsmiləşdirməklə oğluna bağışlaması üçün hər hansı maneə olmamışdır.

Həmçinin cavabdeh gəlirlərinin az olduğuna istinad etsə də, atası XXXXun yüksək gəlirə malik olduğu barədə də sübutlar təqdim etməmiş, sonuncu ifadəsində pensiyaçı olduğunu bildirmişdir.

Bu baxımdan iş üzrə mübahisəli avtomobilin tərəflərin birgə nikahları dövründə birgə vəsait hesabına əldə etdikləri ümumi əmlak olduğu müəyyən edilir.

Ailə Məcəlləsinə müvafiq olaraq, ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir (37.1).

Cavabdeh iddiaçı ilə ümumi əmlakları olan avtomobili onun razılığı və məlumatı olan özgəninkiləşdirdiyi üçün iddiaçı həmin əmlakdan qanunla ona düşən ½ hissədə paydan məhrum olmuşdur və hal-hazırda avtomobiliin satışından əldə edilmiş vəsaitin yarısının cavabdehdən tutulmasını xahiş edir.

Mülki Məcəlləyə əsasən mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsaslarından biri də əsassız varlanmadır (maddə 14.2.7). Əsassız varlanan o şəxs (varlanmış şəxs) sayılır ki, hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) hesabına əmlak əldə etsin. Əsassız varlanma yalnız o zaman baş verir ki, bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə əsası olmur. Hüquqi əsas olmadan varlanma həmçinin o hallarda baş vermiş sayılır ki, bu cür varlanma həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənir (maddə 1091). Varlanmış şəxs əldə etdiklərini məhrum olanın tələbi ilə ona qaytarmalıdır (1092.1).

Mülki qanunvericilik normalarından görünür ki, mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsaslarından biri əsassız varlanmadır. Başqa şəxsin hesabına hər hansı hüquqi əsas olmadan, habelə sonralar aradan qalxmış əsasa söykənərək əmlak əldə etmiş şəxs əldə etdiklərini məhrum olanın tələbi ilə ona qaytarmalıdır.

Apellyasiya baxışı zamanı cavabdeh tərəfə təklif edilməsinə baxmayaraq, həmin tərəf mübahisəli avtomobilin satışından əldə edilmiş vəsaitin məbləği barədə hər hansı sübut təqdim etməmişdir. Halbuki avtomobili özgəninkiləşdirmiş şəxs kimi cavabdehin belə bir sübuta malik olduğu şübhəsizdir. Bundan başqa, qeyd olunan halı müəyyən etmək məqsədi ilə dövlət yol polisi orqanına göndərilmiş məhkəmə sorğusuna cavab verilməmiş, zəruri sənədlər təqdim edilməmişdir.

Apellyasiya baxışı zamanı “XXXX” MMC tərəfindən verilmiş 30.01.2019-cu il tarixli, XXXX saylı əmlakın qiymətləndirilməsi barədə mütəxəssis rəyinə əsasən, mübahisəli

avtomobilin həmin tarixə bazar dəyəri təxminən 34000 manat təşkil edir. Rəy kifayət qədər əsaslandırılmışdır, onun məlumatlarını şübhə altına almaq üçün əsaslar yoxdur.

Kollegiya nəzərə alır ki, MPM-in 106.2-ci maddəsinə əsasən digər tərəf sübutları özündə saxlayıb, məhkəmənin tələbi ilə təqdim etmədikdə, məhkəmə tərəflərin bildirdiyi məlumatlar əsasında iş üçün əhəmiyyətli olan halları müəyyən olunmuş hesab edə bilər.

Bu baxımdan Məhkəmə kollegiyası avtomobilin mövcud bazar dəyərinin ½ hissəsi məbləğində vəsaitin cavabdehdən tutularaq iddiaçıya ödənilməsini mövcud vəziyyətdə iddiaçının hüquqlarının təmin olunmasının yeganə qanuni yolu hesab edir.

Ona görə də iddia tələbi mübahisəli avtomobilə aid hissədə təmin olunmalı, həmin avtomobilin bazar dəyərini təşkil edən 34000 manat pulun ½ hissəsi cavabdehdən tutularaq iddiaçıya ödənilməlidir.

MPM-ə əsasən məhkəmə xərcləri ödənilmiş tələblərin məbləğinə münasib olaraq işdə iştirak edən şəxslərə aid edilir (119).

Göstərilənlərə əsasən və MPM-in 384.0.2, 385, 392, 393, 405-ci maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

**QƏT ETDİ:**

İddiaçı XXXX qızının apellyasiya şikayəti təmin edilsin.

Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin 2(009)- /2018 saylı iş üzrə 28 avqust 2018-ci il tarixli qətnaməsi mübahisələndirilən hissədə – iddianın təmin olunmayan hissəsində ləğv edilsin.

Həmin hissədə iddia təmin edilsin.

Cavabdeh XXXX oğlundan 17000 (on yeddi min) manat pul tutularaq iddiaçı XXXX qızına verilsin.

İş üzrə avtomobilin qiymətləndirilməsi üçün mütəxəssis rəyi üzrə tələb olunan 50 (əlli) manat məhkəmə xərci cavabdeh XXXX oğlundan tutularaq "XXXX" Məhdud Məsuliyyətli Cəmiyyətinin hesabına keçirilsin.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 2 (iki) ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsilə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti verilə bilər.

**Sədrlik edən hakim imza: Abiddin Hüseynov**

**Hakimlər imzalar: Azad İmanov**

**Vahid Sadıqov**

**Əsli ilə düzdür:**
**Hakim Abiddin Hüseynov**